# 1917-Cİ İL OKTYABR ÇEVRİLİŞİ ƏRƏFƏSİNDƏ BAKIDA SİYASİ QÜVVƏLƏR ARASINDAKI FİKİR AYRILIQLARI

**ALMAZ ZÜLFƏLİ QIZI**
***Bakı Dövlət Universiteti***

1917-ci il Azərbaycan tarixinin çox mürəkkəb və ziddiyyətli dövrlərindən biri olmuşdur.

Həmin ilin yayında Rusiyada ikihakimiyyətliyə son qoyulması, bütün hakimiyyətin müvəqqəti hökumətin və onun yerli orqanlarının əlinə keçməsi hadisəsi Bakıda da hakimiyyət orqanlarında böyük canlanma yaratmış oldu.

İstər siyasi partiyaların iyulun 12-də keçirilən konfransında, istərsə də iyulun 14-də, 17-də Bakı Sovetinin İclaslarında hakimiyyət məsələsi müzakirə edilərkən menşevik və eserlər bolşeviklərin iradəsinin əksinə olaraq hakimiyyətin müvəqqəti hökumətin yerli orqanı olan Bakı İctimai Təşkilatları İcraiyyə Komitəsinə verilməsini tələb edən qətnamələr qəbul etdilər (1, s. 153).

Tarixi faktlar, araşdırmalar sübut edir ki, hadisələrin belə inkişafı bolşeviklərlə menşevik, eser, daşnak və milli-siyasi qüvvələr arasında mübarizəni daha da qızışdırdı.

Azərbaycan tarixinin 1917-1918-ci illər dövrünün görkəmli tədqiqatçılarından olan Z.İ.İbrahimov düzgün olaraq «...Rusiyanın hər yerində olduğu kimi, Azərbaycanda, xüsusən Bakıda bolşeviklərlə menşeviklər, eserlər və millətçilər arasında mübarizənin daha da qızışdığını» (1, s. 152) qeyd etmişdir.

Lakin menşevik-eserlər hakimiyyət məsələsini İctimai Təşkilatların İcraiyyə Komitəsinin xeyrinə həll etmək istəsələr də buna nail ola bilmədilər.

Özünü mart ayında hakimiyyət orqanı elan etmiş İTİK əhali içərisində nüfuz qazana bilməmiş və tədricən əlindəki hakimiyyət Bakı Sovetinə keçmişdi. Artıq bir çox məsələlərin həlli ilə Bakı Soveti özü məşğul olurdu.

Yeni mərhələdə mövcud orqanların, təşkilatların sosial tərkibi yeni şəraitə uyğun gəlmədiyi üçün onların demokratikləşdirilməsi zəruriliyi yaranmışdı. Belə təşkilatlardan biri Bakı Müsəlman İctimai Təşklatlar Şurası, digəri isə Bakı Şəhər Duması idi.

Bakı Müsəlman İctimai Təşkilatları Müvəqqəti komitəsi mayın 24-də Bakıda və onun rayonlarındakı bütün müsəlman təşkilatlarına öz orqanlarının, nümayəndəliklərinin demokratik əsaslarla yenidən seçilməsinə başlamaq təklifi ilə müraciət etməyi qərara aldı (2, s. 4).

Demokratikləşmə əhalinin müxtəlif təbəqələrinin müsəlman təşkilatında təmsil olunmasını təmin etməli idi. Lakin bu proses siyasi qüvvələr arasındakı ciddi ixtilaflar şəraitində həyata keçirilirdi. İyulun

13-də Müsəlman İctimai Təşkilatlar Komitəsində keçirilən seçkilərin nəticəsindən (fəhlə-kəndlilərdən cəmisi 6 nəfər seçilmişdi - A.Zülfəli qızı) narazı qalan bolşeviklər 60 nəfər fəhlə-kəndli nümayəndəsinin Müsəlman Şurasına cəlb edilməsini və onlardan müvafiq miqdarda Milli Komitəyə seçilməsini təklif etmişdilər.

Azərbaycan burjua nümayəndələri, ziyalılar bu məsələyə başqa mövqedən yanaşdıqları üçün təbiidir ki, bolşeviklərin təklifinin əleyhinə idilər.

Azərbaycan ziyalıları hesab edirdilər ki, müsəlman təşkilatını ona öz qüvvəsi, bacarığı ilə təsir göstərə bilən savadlı, siyasi cəhətdən yetkin adamlar təmsil etməlidirlər. Ceyhun Hacıbəylinin sözü ilə desək, «təşkilat millətin simasını əks etdirməlidir» (3).

Lakin bununla yanaşı, ziyalılar fəhlə və kəndlilərin həyatı maraqlarını ifadə etmək üçün onların da müvafiq surətdə təşkilatda təmsil olunması zərurətini dərk edərək 5-6 nəfərdən ibarət olması ilə kifayətlənməyi məsləhət bilirdilər.

Lakin buna baxmayaraq bolşeviklər seçkilərin yenidən keçirilməsinə nail oldular. Avqustun 23-də milli komitənin yenidən seçilməsi qərara alındı.

İctimai Təşkilatlar Şurasının Ə.M.Topçubaşovun sədrliyi ilə keçirilən 5 sentyabr tarixli İclasında isə bəzi siyasi partiyalara da komitədə bir yer verilməsi təklif olundu.Bu fikirlə razılaşmayanlar isə istisna olmayaraq bütün təşkilatlara Komitədə iştirak etmək hüququ verilməsini tələb etdilər. N.Nərimanov isə fəhlə və kəndli nümayəndələri iştirak etmədiyi üçün seçkiləri təxirə salmağı təklif etsə də Şuranın üzvləri onunla razılaşmadılar. Nəticədə, 11 nəfər bitərəf olmaqla böyük səs çoxluğu ilə Milli komitəyə 33 nəfər seçilir: Ə.M.Topçubaşov, M.Ə.Rəsulzadə, F.X.Xoyski, Ə.Ə.Əmircanov, M.Əsədullayev, M.H.Hacınski və b (4, s. 6).

Yeni seçilmiş komitənin sentyabrın 6-da keçirilən İclasında Topçubaşovin verdiyi məlumata görə Komitəyə seçilən 33 nəfərdən əlavə fəhlə və kəndlilərin hərəsindən 3 nəfər, siyasi partiyaların da hər birindən bir nəfər daxil edilir (4, s.6).

Müsəlman İctimai Təşkilatlar komitəsinin tərkibi neft sənayeçiləri, tacirlər, ziyalılar və 6 nəfər fəhlə-kəndli nümayəndəsindən ibarət oldu.

Sovet dövründə milli hərəkat mövzusunun tədqiqi qadağan edildiyindən Azərbaycan sovet tarixşünaslığında ona epizodik mövqedən yanaşılmış və yalnız ümumi fikirlər söylənilmişdir: «Bakı Müsəlman İctimai Təşkilatları Komitəsinə və Müsəlman Şurasına keçirilən seçkilər millətçilərin istədikləri kimi aparıldı, komitənin heyətinə yalnız varlı siniflərin nümayəndələri daxil edildi...» (1, s. 147-148).

1917-ci ilin yazından yerli özünüidarə orqanlarının demokratikləşdirilməsi məsələsi də xüsusi müzakirə predmetinə çevrilmişdi. Bakı Fəhlə və Hərbi Deputatları Soveti İcraiyyə Komitəsi demokratiya nümayəndələrinin artırılması hesabına şəhər Dumasının demokratikləşdirilməsini qərara almışdır. Komitə Bakı şəhər Dumasına bəyanatla müraciət edərək bildirirdi ki, «...Sovetin İcraiyyə komitəsi Sizə, yerli özünüidarənin üzvlərinin seçilməsini, həmçinin Dumanın tərkibinin demokratik elementlərlə artırılması məsələsinin müzakirəsini təxirə salmağı təklif edir. Komitə həmin məsələləri həll etdikdən sonra Duma onu müzakirə edə bilər » (5, s. 3).

Qeyd etmək lazımdır ki, Bakı şəhər idarəsi bələdiyyə orqanı funksiyalarını yerinə yetirməklə hakimiyyət uğrunda mübarizəyə də qoşul-

mağa başladı. «Burjuaziya onu hakimiyyət orqanına çevirmək istəyirdi. Belə bir şəraitdə, təbii ki, şəhər idarəsinin sosial tərkibi böyük əhəmiyyət kəsb edirdi» (6, s. 10-11).

1917-ci ilin yayında Bakıda Dumaya seçkilər çox gərgin mübarizə şəraitində gedirdi.

«Fəhlə rayonlarının şəhər Dumasına seçkilərdə iştirak edə bilməsi üçün Sovet (bolşeviklər - A.Zülfəli qızı) mədən-zavod rayonlarının şəhərə birləşdirilməsi məsələsini irəli sürür» (6).

Çünki, hələ çar hakimiyyəti vaxtında mədən-zavod rayonları Bakı şəhərinə deyil, kənd Sovetlərinə daxil idilər və onların nümayəndələri şəhər yerli özünüidarə orqanlarında iştirak etmirdilər.

Bolşeviklərin təklifinin mahiyyəti, bir tərəfdən Dumaya daha çox fəhlə nümayəndəsi daxil etmək, digər tərəfdən bolşeviklərin seçkilərdə çoxluq əldə etmək, bunun əsasında özlərinə arxa yaratmaqdan ibarət idi.

Y.Ratqauzer, Z.İ.İbrahimov əsərlərində (7) mədən-zavod rayonlarının şəhərə birləşdirilməsi məsələsində siyasi qüvvələrin mövqeyini şərh etmiş və bolşeviklərin əsas məqsədinin fəhlələrin seçkilərə cəlb edilməsindən ibarət olduğunu xüsusi vurğulamışlar. Lakin həmin müəlliflər məsələyə sovet tarixşünaslığına xas olan bir mənalı tərzdə yanaşmış və həmin əksəriyyətin bolşeviklərin nüfuzunun yüksək olduğu rus fəhlələrindən ibarət olduğunu qeyd etməmişlər. Lakin Y.Ratqauzerdən fərqli olaraq Z.İ.İbrahimov «Bakı bolşeviklərinin Dumada inqilabi fəhlə və əsgər nümayəndələrinin üstünlük qazanmasına səy etdiklərini bildirməklə» (1, s. 238) üstüörtülü şəkildə olsa da Sovetin rəhbərliyinin qeyri-millətlərin nümayəndələrinə üstünlük verdiyini göstərməyə çalışmışdır.

Azərbaycan sovet tarixşünaslığında doğru olaraq belə bir fikir irəli sürülüb ki, fəhlə kütlələrinin Sovet ətrafında toplanmasına imkan verməmək üçün Azərbaycan burjuaziyası mədən-zavod rayonlarının şəhərə birləşdirilməsinin əleyhinə olmuşlar.

Həqiqətən də Azərbaycan burjuaziyası, musavatçılar fəhlələrin Sovet ətrafında toplanmasının əleyhinə idilər. Bunun da səbəbləri var idi: 1) mədən-zavod rayonlarının əhalisinin tərkibininn əksəriyyəti rus fəhlələrindən ibarət idi. Deməli, rus fəhlələrinin Sovetə cəlb edilməsi və Dumada seçkilərdə iştirak etməsindən söhbət gedirdi. Bu da yalnız bolşeviklər üçün xeyirli ola bilərdi. 2) Kəndlər, mədən-zavod rayonlarından ayrılır, kənarda qalırdı. Kəndlilərin isə rayonlardan ayrılması onları iqtisadi cəhətdən əlverişsiz bir vəziyyətə sala bilərdi.

Bolşeviklər isə əhalisi müsəlmanlardan ibarət olan kəndlərin mədən rayonları ilə birlikdə şəhərə birləşdirilməsində maraqlı deyildilər. Çünki müsəlmanlar bolşevikləri müdafiə etmirdilər.

Musavat partiyasının sentyabrın 7-də keçirilən İclasında da mədən rayonlarının şəhərə birləşdirilməsi məsələsi müzakirə edilərkən onun Bakı qəzası kəndlilərinin həyati mənafeyinə tamam zidd olduğu qeyd edilmişdir.

Azərbaycan burjua nümayəndələri, müsəlman demokratiyası, menşeviklər, eserlər fəhlə rayonlarının şəhərə ilhaq edilməsinin siyasi mənasını anlayaraq bolşeviklərin şəhər Dumasına seçkilərdə əksəriyyət qazanacaqlarından ehtiyat edərək bu məsələnin qəti olaraq əleyhinə olduqlarını bildirmişdilər.

Həmin məsələ Dumanın müzakirəsinə verilərkən artıq 3 layihə mövcud idi: 1) Mədənləri 45 kəndi olan qəzaya qatmaq və orada qəza zemstvo idarəsi yaratmaq (musavatçılar və Azərbaycan burjuaziyasının

təklifi) 2) Bir neçə hissəyə bölməklə (Bibiheybət, Ağ şəhər və i.a.) mədən rayonlarında ayrıca özünüidarə yaratmaq (menşeviklərin təklifi) 3) Mədən rayonlarını şəhərə qatmaq (bolşeviklərin təklifi). Bu məsələnin müzakirəsi avqustun 1-də Bakı Şəhər Dumasının İclasında kəskin ixtilaflar doğurdu.

Bolşeviklər mədən rayonunun şəhərlə sıx əlaqəsi olduğunu və onları bir-birindən ayırmağın qeyri-normal olduğunu sübut etməyə çalışırdılar.

Məsələnin nizama salınması Xüsusi Zaqafqaziya Komitəsinin ixtiyarına verilmişdi. Komitənin avqustun 8-də kəskin mübarizə şəraitində keçən İclası birləşmə məsələsinin müzakirəsini təxirə salmış və 3 nəfərdən ibarət komissiya təşkil etdi ki, Bakıda həmin məsələ ilə məşğul olsun və tezliklə öz mülahizələrini bildirsin. Komissiyanın sədri Ə.M.Topçubaşov seçilmişdi (8, s. 6).

Sentyabrın 1-də Ə.M.Topçubaşov Müsəlman Milli Komitəsinin İclasında komissiya haqqında məlumat verir. İclasda komissiyanın üzvləri Ramişvili və Erzingyan mədən-zavod rayonlarının şəhərə birləşdirilməsinin lehinə olduqlarını bildirirlər (8). Ə.M.Topçubaşovun isə bu məsələdə öz mövqeyi var idi. O, dedi ki, komissiya hələ hansı kəndlərin şəhərə birləşdiriləcəyini müəyyənləşdirməyib. Bu məsələ ilə bağlı məruzəni xüsusi Zaqafqaziya Komitəsinə təqdim etmək üçün seçilən komissiyaya Ə.M.Topçubaşov, F.X.Xoyski, M.Əsədullayev daxil oldular (8).

Xüsusi Zaqafqaziya Komitəsinin sentyabrın 7-də keçirilən İclasında birləşmə məsələsinin müzakirəsi son dərəcə kəskinləşdiyinə görə və bolşeviklərin rəhbərliyi altında genişlənən kütləvi fəhlə hərəkatının təzyiqi altında komitə mədən rayonunun şəhərə birləşdirilməsini qərara almağa məjbur oldu. Lakin qərar kağız üzərində qalaraq həyata keçirilmədi.

1917-ci il oktyabrın 29-da Bakı Şəhər Dumasına seçkilər keçirildi. Dumaya seçilən 109 nəfərdən 25 nəfəri sosialist blokundan, 19-u bolşevik, 14-ü musavatdan, 11-i İttihaddan, 17-i daşnaksütyun, 6-kadet partiyasından idi. Qalanları da xırda siyasi qrupların üzvləri idi (9). Dumanın sədri F.X.Xoyski seçillmişdi.

Rusiyada Fevral inqilabının nailiyyətlərinin ləğvinə yönəldilmiş Kornilov qiyamını bolşeviklər kimi müsəlman demokratiyası da pisləyirdi.

Musavat partiyasının sentyabrın 1-də keçirilən İclasında Kornilov qiyamı ilə əlaqədar aşağıdakı məzmunda qətnamə qəbul edildi. «İnqilabi demokratiya daxilində birliyin olmaması belə hərəkatlara gətirib çıxardır... Müsəlman xalqları da öz azadlığı uğrunda mübarizəyə hazır olmalıdır. Çünki yalnız azad ölkə millətlərin və müsəlmanların hüquqlarını təmin edər və qoruya bilər» (8, s.6).

Sentyabrın 1-də Təzə Pir məscidinin həyətində müsəlmanların təşkil etdiyi mitinqi Bakı Müsəlman Təşkilati Komitəsinin sədri Ə.M.Topçubaşov açaraq qətiyyətlə bildirdi ki, «Biz müsəlmanlar ölkənin siyasi həyatında iştirak etməliyik» (8).

O, sözünə davam edərək Kornilov qiyamının mahiyyətini açıb göstərir və qeyd edirdi ki, 70 min əsgərlə Kornilov nə inqilabi orduya, nə də inqilabi xalqa heç bir şey verə bilməz (8). Ə.M.Topçubaşov bütün müsəlmanları inqilabın nailiyyətlərini qorumağa, möhkəmləndirməyə və hər cürə əksinqilabi cəhdlərə qarşı çıxmağa çağırırdı (8).

Mitinqdə komitənin üzvlərindən olan Q.Qasımov köhnə hakimiyyətin qeyri-rus xalqlarına qarşı yeritdiyi siyasəti xatırladaraq qeyd etdi ki, biz heç bir zaman belə bir hökumətin tərəfdarı ola bilmərik (8, s.6).

Bu dövr neft sahibкarlarının fəhlələrlə toqquşması ilə də səciyyələnirdi.

Bolşeviкlər proletariat içərisində öz təsirini güjləndirməк məqsədi ilə 1917-ci ilin sentyabrında кolleкtiv müqavilə uğrunda Baкı fəhlələrinin neft sahibкarlarına qarşı apardığı mübarizəyə başçılıq edərəк onu «bütün haкimiyyət sovetlərə!» şüarı uğrunda mübarizəyə yönəltməyə çalışırdılar.

Oкtyabr çevrilişi ərəfəsində Azərbaycanda siyasi hadisələrin inкişafı haкimiyyətin məhz sovetlərə verilməsinin reallaşdırılmasına doğru gedirdi.

## ƏDƏBİYYAT


1. İbrahimov Z.İ. Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətкeşlərinin mübarizəsi. Baкı, 1957.
2. «Kaspi» qəzeti, № 114, 26 may 1917.
3. «Kaspi» qəzeti, 31 mart 1917.
4. «Kaspi» qəzeti, № 200, 7 sentyabr 1917.
5. «Kaspi» qəzeti, № 91, 26 aprel 1917.
6. Шаумян С. Бакинская коммуна. Б., 1927.
7. Ратгаузер Я. Революция и гражданская война в Баку. Часть I, 1917/18. Б., 1927.
8. «Kaspi» qəzeti, № 197, 3 sentyabr 1917.
9. Балаев А. Азербайджанское национальное движение в 1917-1918 гг. Б.,1998.


## РАЗНОГЛАСИЯ МЕЖДУ ПОЛИТИЧЕСКИМИ СИЛАМИ В БАКУ НАКАНУНЕ ОКТЯБРЬСКОГО ПЕРЕВОРОТА 1917 Г.


**АЛМАЗ ЗУЛЬФАЛИ КЫЗЫ**



## РЕЗЮМЕ

1917-ый год - самый сложный и противоречивый период в истории Азербайджана.

Статья исследует вопрос отношения политических сил Азербайджана к процессам, которые происходили в Баку, особенно к демократизации Бакинской городской думы и Совета Мусульманской общественной организации. Отмечается, что социальный состав Городской думы и Мусульманской организации не соответствовало новому периоду, поэтому демократизация была необходима.

В данной статье на основе фактических материалов рассмотрены разногласия, которые имелись между политическими силами Азербайджана по тем же вопросам.


## DİSAGREEMENTS BETWEEN POLİTİCAL FORCES İN BAKU ON THE EVE OF OCTOBER REVOLUTİON OF 1917


**ALMAZ ZULFALİ KİZİ**



## SUMMARY

The 1917 year is the most complex and discrepant period of Azerbaijan history.

The article investigates a question of attitude of Azerbaijan political forces to processes that tooк place in Baкu, particularly to the democratization of Baкu Town Council and the Council of Muslim public organization. There has been marкed that the Town Council and the Muslim public organization social structure did not correspond the new period. İn this regard there has been necessity in democratization.

İn the article, on the basis of factual material, have been viewed disagreements between the political forces of Azerbaijan on the mentioned issues.